*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 331-335* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.331*

## AZƏRBAYCAN MİNİATÜRÜNÜN ESTETİK PRİNSİPLƏRİ

**Sevinc Qurbanova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası. Azərbaycan.
E-mail: sevincadra1@mail.ru

**Annotasiya.** Məqalə Azərbaycan miniatürünün estetik prinsiplərinə həsr olunmuşdur. Qədim tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan miniatürünün öz dövrünün aparıcı ifadə vasitəsinə çevrilməsi onun estetik tutumundakı bədii dəyərin universallıq kəsb etməsi ilə bağlı olmuşdur. Orta əsrlərin başlanğıcında monumental rəngkarlıqda və əlyazmalarda tətbiq olunan, cəlbedici və gözoxşayan ümumi tutuma malik olan miniatür üslubu, tədricən təsviri və dekorativ-tətbiqi sənətin müxtəlif sahələrinin də əsas ifadə vasitəsi kimi çıxış etməyə başlamışdır. Orta əsrlərdə miniatür üslubunun monumental rəngkarlıqda və keramikada, daha sonra isə parça və xalça sənətlərində, ən nəhayət, kitab qrafikasında (əlyazmaların tərtibatı) tətbiqi Azərbaycan incəsənətinə özünəməxsusluq bəxş etmiş, dünya miqyasında milli təsviri və dekorativ-tətbiqi sənətin "tanınma nişanı"na çevrilmişdir. XIX-XX əsrlərdə miniatür ənənələrinə Avropanın müasir ruhlu cərəyan və üslubları özlərini tanıtdırmış məşhur rəssamların müraciət etmələrini isə heç şübhəsiz, bu ifadə vasitəsinin yeni və əvvəllər rast gəlinməyən bədii prinsiplərə malik olması ilə əlaqələndirmək mümkündür.
**Açar sözlər:** miniatür, üslub, prinsip, janr, süjet, estetika, stilizə

**Məqalə tarixçəsi:** göndərilib – 08.11.2023; qəbul edilib – 21.11.2023

## AESTHETIC PRINCIPLES OF AZERBAIJANI MINIATURE

**Sevinj Gurbanova**
Azerbaijan State Academy of Fine Arts. Azerbaijan.
E-mail: sevincadra1@mail.ru

**Abstract.** In the article is dealt with the aesthetic principles of Azerbaijani miniature. The transformation of the Azerbaijani miniature with an ancient history and rich artistic traditions into the leading means of expression of its period and this was due to the perceived universality of artistic value in his aesthetic capacity. Miniature style was applied in monumental coloration and manuscripts and had an attractive and impressive overall capacity at the beginning of the Middle Ages; and gradually began to act as the main means of expressiveness in various areas of fine and decorative and applied arts. In the Middle Ages the application of miniature style in monumental dyeing and ceramics, the art of fabric and carpet, and finally in book graphics (preparation of manuscripts) presented the uniqueness to Azerbaijani art and became "recognition badge" of national fine and decorative-applied arts. During the 19th – 20th centuries, famous European painters who introduced themselves with modern spirited trends and styles addressed to miniature traditions; and undoubtedly, this can be attributed to the fact that the means of expression have new and unprecedented artistic principles.
**Keywords:** miniature, style, principle, genre, plot, aesthetics, stylize

**Article history:** received − 08.11.2023; accepted − 21.11.2023

## Giriş / *Introduction*

Qədim tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan miniatürünün öz dövrünün aparıcı ifadə vasitəsinə çevrilməsi onun estetik tutumundakı bədii dəyərin duyulası universallıq kəsb etməsi ilə bağlı olmuşdur. Orta əsrlərin başlanğıcında monumental rəngkarlıqda və əlyazmalarında tətbiq olunan, cəlbedici və gözoxşayan ümumi tutuma malik olan miniatür üslubu, tədricən təsviri və dekorativ-tətbiqi sənətin müxtəlif sahələrinin də əsas ifadə vasitəsi kimi çıxış etməyə başlamışdır. Yeni üslubun mənşəyini axtarmalı olsaq, onda onun zamanında Mani təlimi-fəlsəfəsi və Çin-uyğur rəssamlığının Soqdiya (Mərkəzi Asiya-Şərqi Türküstan) rəngkarlığı ilə qovuşağından yarandığını və bütün yaradıcı insanları qane edəcək ifadə vasitəsi kimi az sonra digər Şərq-müsəlman ölkələrində, o cümlədən də Azərbaycanda yayılmağa başladığını deməliyik. Üslubun daha sonra İslam dininin tələblərini nəzərə almaqla fərqli məziyyətlərlə zənginləşməsini də bütünlükdə rəssamların bədii axtarışlarına təkan verməsi kimi qəbul etmək olar. Orta əsrlərdə miniatür üslubunun monumental rəngkarlıqda və keramikada, daha sonra isə parça və xalça sənətlərində, ən nəhayət, kitab qrafikasında (əlyazmalarının tərtibatı) tətbiqi Azərbaycan incəsənətinə özünəməxsusluq bəxş etmiş, dünya miqyasında milli təsviri və dekorativ-tətbiqi sənətin “tanınma nişanı”na çevrilmişdir. XIX-XX əsrlərdə miniatür ənənələrinə Avropanın müasir ruhlu cərəyan və üslubları özlərini tanıtdırmış məşhur rəssamların (A.Matiss, P.Qogen və s.) müraciət etmələrini isə heç şübhəsiz, bu ifadə vasitəsinin yeni və əvvəllər rast gəlinməyən bədii prinsiplərə malik olması ilə əlaqələndirmək mümkündür. Elə indinin özündə də miniatürün müasir rəssamların ilham qaynağına çevrilməsi onun bir üslub kimi zamansızlığa qovuşduğundan xəbər verir.

## Əsas hissə / *Main Part*

Üslubun bədii vasitələrinin yığcamlığı və məna-məzmun daşıyıcılığının çoxqatlı olması səbəbindən bu gün orta əsrləri öyrənən tarixçi-etnoqraf, sənətşünas, kimyaçı və digər peşə sahibləri üçün əvəzsiz mənəvi qaynağa çevrilməsi də danılmazdır. Qənaətimizcə, bu marağın kökündə heç şübhəsiz ki, Azərbaycan miniatürünün özünəməxsus estetikaya malik olması durur. Bu estetikanın mahiyyətinə nəzər salmaqla, onun əbədiyaşarlığının səbəblərini aydınlaşdırmaq mümkündür. Bunun cövhərində, ilk növbədə, onun sənət növü yox, üslub olması durur desək, yanılmarıq. Miniatürün yaranma tarixini tədqiq edən sənətşünas Z.Əliyevin müstəqillik illərində gəldiyi məntiqli qənaətlər bizə bunu söyləməyə əsas verir [3]. Üslubun Mərkəzi Asiyadan sayca azərbaycanlı türklərin çoxluq təşkil etdiyi İran ərazisinə daşınması və burada əvvəlcə Səlcuqların hakimiyyəti (XII-XIII əsrlər), daha sonra isə Səfəvi hökmdarları I Şah İsmayıl Xətai və Şah Təhmasibin zamanında yüksək inkişaf mərhələsi keçməsi, həm də onun sənətin bütün sahələrini əhatə etməsinə şərait yaratmışdır. Bu yerdə deyək ki, təkcə XII-XIII əsrlərdə yaradılmış keramika nümunələrində yüksək icra sənətkarlığının nümayişi üslubun kitab qrafikası kimi təqdimatının kökündən yanlış olduğunu söyləməyə əsas verir. Zamanında bu üslubu A.Matiss və P.Qogenin kətan üzərində ərsəyə gətirdikləri rəngkarlıq əsərlərində tətbiq etməsini də buraya əlavə etsək, digər mənbələrə müraciət etməyə ehtiyac da qalmır. Əlavə edək ki, XX əsrin əvvəllərində Avropada davamlı olaraq təşkil olunan “Müsəlman incəsənəti” sərgiləri də Qərbin ən mütərəqqi rəssamlarının belə böyük marağına səbəb olmuşdu. Onu da xatırladaq ki, artıq XVIII-XIX əsrlərdə klassik miniatürdən qaynaqlanan “Qacar üslubu”nda yaradılmış əsərlər də ənənəvi monumental rəngkarlıq və qrafikaya aid olmayıb, həm də bilavasitə kətanla bağlı olan rəngkarlıq tabloları idilər.

Qeyd etmək lazımdır ki, üslubun bütün orta əsrlər boyu müxtəlif sənət sahələrinə tətbiqi həm də ona müraciət edənləri miniatürün ümumi estetikasına yaradıcı yanaşmaqla, onun həm təsviri, həm də dekorativ-tətbiqi sənət növlərində özünəməxsus görkəm – şərh forması almasına nail olmuşdular. Daha dəqiq desək, üslubun ifadəsində ümumi bədii məqamlar mövcud olsa da, öz-özlüyündə onların hər birinin estetikası bir-birindən fərqli idi. Heç şübhəsiz, bunu şərtləndirən başlıca səbəb, həmin sahələrdə tətbiq olunan materialların bədii-texniki göstəricilərinin müxtəlif olması idi. Belə ki, əgər əlyazma səhifələrini bəzəyən illüstrasiyalar daha incə və zərif bədii şərh tələb edirdisə, əksinə, xalçadakı təsvirləri əyaniləşdirən xətlər isə duyulası stilizə və geniş bədii ümumiləşdirmələri ilə diqqət çəkirlər. Təbii ki, bu mənada divarda, kətan, metal və parça üzərində yer alan miniatür üslubunun zahiri görüntüsü də həmin sahələrin bədii-texniki məziyyətləri ilə səsləşməklə özünəməxsus biçimdə idilər.

Orta əsrlər boyu rəssamların müxtəlif nəsilləri sələflərinin bədii tapıntısına yaradıcı münasibət göstərməklə bu üslubun əbədiyaşarlığına nail olmuşlar. Lakin Azərbaycanın sovetləşməsindən sonra, yeni təşkil olunan xüsusi ixtisas məktəbində (Bakı Rəssamlıq Texnikumu nəzərdə tutulur), nədənsə, milli tutumlu miniatürün əsaslarının tədrisi arzulanan olmamışdı. Dolayısı təpkilərə baxmayaraq, ayrı-ayrı rəssamlar zaman-zaman öz əsərlərində miniatür estetikasına müraciət etməklə, milli ruhlu bədii nümunələr yaratmağa nail olmuşlar. Yeri gəlmişkən deyək ki, ötən əsrin otuzuncu illərində təşkil olunan "Ə.Firdövsi-1000" sərgisində bir-neçə gənc rəssamın miniatür üslublu rəngkarlıq əsərləri ilə çıxış etmələri rəsmi dairələr tərəfindən mənfi qarşılanmış və onlar Qərb incəsənətini təbliğ etməkdə suçlanmışdılar. Etiraf edək ki, miniatürə bu cür soyuq münasibət ölkədə kommunist rejiminin bütün mövcudluğu dövründə davam etmişdi. Yalnız 1979-cu ildə Azərbaycan KP MK-nın Nizami Gəncəvi irsinin tədqiqi və təbliği ilə bağlı xüsusi qərar qəbul etməsindən sonra bu sahədə müəyyən irəliləyiş hiss olunmağa başlandı. Bu mənada qədim İçərişəhərdə "Azərbaycan miniatür mərkəzi"nin açılışı, Azərbaycan Rəssamlar İttifaqında Miniatür və kitab qrafikası bölməsinin yaradılması, bir-neçə sərginin təşkilini qeyd etmək olar. Təəssüf ki, bundan sonra miniatür üslubunun təbliği demək olar ki, unuduldu və yalnız az-az rəssamın yaradıcılığında bu üslubdan faydalanmanı görmək mümkün oldu. Yalnız ölkənin müstəqillik qazanmasından sonra bir qrup rəssam miniatür ənənələrinin dirçəldilməsi yönündə müəyyən addımlar atdılar. 2008 və 2010-cu illərdə təşkil olunan "Şərqdən-Şərqə" adlı miniatür sərgiləri respublika rəssamlarının bu sahəyə yeni nəfəs verə biləcək yaradıcı potensiala malik olduqlarını üzə çıxardı.

Azərbaycan miniatürlərinin estetik prinsiplərindən söz açanda, ilk növbədə, onun məna-məzmun yükünün Şərq poetikası romantizmi ilə səsləşən bədii vasitələrlə ifadə olunduğunu deməliyik. Bunun da bilavasitə miniatür üslublu əsərlərin bir qayda olaraq orta əsrlərdə yazılmış və yaxud üzü köçürülmüş məşhur söz xiridarlarının əlyazmalarının bəzəyinə çevrilməsi ilə bağlı olduğunu söyləyənlər yanılmırlar. Etiraf edək ki, məhz əlyazmalarında yer almış miniatürlərin sayəsində onlar zamanında əlçatmaz mənəvi dəyər daşıyıcılarına çevrilmişdilər. Odur ki, orta əsrlərdə belə qiymətli əlyazmaları hökmdarların bir-birinə hədiyyə etmələrini təbii saymaq olar.

Miniatür üslubunun memarlıqda tətbiqinin gözəl nəticələr verdiyini görmək üçün Cənubu Azərbaycan şəhərləri ilə yanaşı, Şəki və Şuşadakı saray və mülki tikililərə nəzər salmaq kifayətdir. İnteryerləri bəzəyən bu divar rəsmlərinin özünəməxsus estetik dəyər daşıyıcısı kimi çıxış etmələri birmənalıdır.

Miniatürlərdə fiziki-optik perspektivliyin yoxluğu ilə təsvirə gətirilənlərin reallıqdan nisbətən uzaq-xəyali məkanda, lakin inandırıcı təqdimatı orta əsr rəssamlığımızın əldə etdiyi ən böyük uğurlardandır. Bunun çox vaxt dinin tələblərindən qaynaqlandığını, bununla da müəllifləri Allaha şərik qoşmaqda günahlandırmaqdan xilas etmək məqsədilə icra olunduğunu söyləyirlər. Belə miniatürlərin kompozisiyalarının tərtibində fiqurların çoxluğuna nail olmaq üçün zamanında rəssamlar fiqurların üst-üstə sıralanma və spiralvari düzülüşü prinsipinə üstünlük vermişlər. Heç şübhəsiz, müxtəlif mövzulu miniatürlərin cəlbediciliyini şərtləndirən

səbəblərdən biri də əsərlərin parlaq rənglərlə ərsəyə gətirilməsi olmuşdur. Miniatürlərin təzadlı rənglərin bir araya gətirilməsindən yaranan harmoniyasının heyranediciliyi birmənalıdır. Üslubun məhz bu xüsusiyyəti onlarla təmasda olmuş məşhur Avropa rəssamları üçün belə həsədaparıcı olmuşdur.

Azərbaycan miniatürlərinin geniş ümumiləşdirmə və bədii stilizələrlə ifadəsində də gözoxşayan estetik məziyyətlər kifayət qədərdir. Əsərlərin bədii həllini səciyyələndirən lakonizm və özünəməxsus ritmin kompozisiyaları təşkil edən fiqur və ayrıntıların duyğulandırıcı mənəvi qaynağa çevrilməsində mühüm rol oynadığı da danılmazdır.

Miniatür üslublu əsərlərin bədii tutumunun həm də çoxqatlı olması da onun özəl məziyyətlərindəndir. Bunu şərtləndirən başlıca xüsusiyyət isə çox vaxt miniatürlərin çoxqatlılığını şərtləndirən rəmzi ifadə vasitələrindən geniş istifadə olunmasıdır. Məna daşıyıcısı olan belə rəmzlər həm rənglərin, həm də fiqurların jestlərinin mənalandırılmasında tətbiq olunmuşdur.

Azərbaycan miniatürlərinin maraq doğuran bədii prinsiplərindən biri də onların bədii həllində kölgənin yoxluğudur. Tədqiqatçılar "kölgəsizliyi"n dini tələblərdən qaynaqlandığını vurğulamaqla, bunun kölgədə şər qüvvələrin toplandığı barədə fikirlərlə bağlı olduğunu söyləyirlər. Bu mənada miniatürün bir çox bədii xüsusiyyətləri ilə yanaşı, "kölgəsizliyi"nə baxmayaraq, bu qədər heyranedici görünməsi də bütün dövrlərdə sənət aləminin başlıca müzakirə mövzusu olmuşdur. Təəccüblü deyildir ki, məhz həmin prinsipin tətbiqi təsviri və dekorativ-tətbiqi sənət sahəsində fəaliyyət göstərən avropalılarda daima maraq oyatmışdır. Bu gözlənilməz bədii şərhin həm də miniatür üslubunu yaşadan orta əsr miniatürinin sonsuz yaradıcı təxəyyülə malik olmaları ilə bağlanmasını məntiqli hesab etmək mümkündür.

Yuxarıda sadalanan bədii prinsiplərin üslubun estetikasının Qərb rəssamlığında olduğu kimi, əksər janrlarda əsərlər yaratmağa imkan verməsini, ilk növbədə, onun əbədiyaşarlığını təsdiqləmişdir. Miniatür üslubunun əsərlərdə ən müxtəlif mövzuları bədii görüntüyə çevirməyə imkan verməsini onun həm də universallığına dəlalət etdiyini söyləmək olar.

## Nəticə / *Conclusion*

Orta əsrlərdən başlayaraq bu günümüzə kimi davam edən "miniatür erası"nda interyerdə və açıq havada görüntüyə gətirilmiş çoxsaylı süjetləri görmək mümkündür. Saray təntənələrini, döyüş səhnələrini, lirik-epik səhnələri, məişət səhnələrini, tarixi şəxsiyyətlərin obrazlarını, ədəbi nümunələrin qəhrəmanlarını, gözoxşayan mənzərələri, heyvan, canlı və cansız əşya təsvirlərini özündə yaşadan Azərbaycan miniatürlərinin bu gün dünyanın ən məşhur muzey və şəxsi kolleksiyalarını bəzəməsi də onların daşıdıqları estetik dəyərlərin bənzərsizliyindən xəbər verir. Odur ki, Azərbaycan miniatürləri özünəməxsus bədii-estetik prinsiplərinə görə dünyada mövcud olan miniatür məktəbləri arasında önəmli yer tutur.

## Ədəbiyyat / *References*

1. Azərbaycan incəsənəti (monorafiya). – Bakı: İşıq, 1992.
2. Kərimov, K. Azərbaycan miniatürləri. – Bakı: İşıq, 1980.
3. Əliyev, Z. Miniatür üslubunun yaranma tarixindən. – "Mədəniyyət.az", 2018.
4. Денике, Б. Живопись Ирана. – Москва: Искусство, 1938.
5. Гасанзаде, Дж. Тебризская миниатюрная живопись. – Баку: Оскар, 2000.
6. Каджар, Ч. Искусство Азербайджана. – Баку: Оскар, 2010.
7. Казиев, А. Художественное оформление Азербайджанской рукописной книги XIII-XIV веков. – Москва: Книга, 1977.

# ЭСТЕТИЧЕСКИЕ ПРИНЦИПЫ МИНИАТЮРЫ АЗЕРБАЙДЖАНА

**Севиндж Гурбанова**
Азербайджанская Государственная Академия Художеств. Азербайджан.
E-mail: sevincadra1@mail.ru

**Резюме.** Статья посвящена эстетическим принципам азербайджанской миниатюры. Превращение азербайджанской миниатюры с её древней историей и богатыми художественными традициями в средство ведущего носителя изображения своей эпохи было связано с универсальностью эмоционального эстетически ёмкого ощущения её художественной ценности. Жанр миниатюры, выраженный в начале средних веков ёмкостью радующей глаз привлекательности в монументальной живописи и рукописях, постепенно начинает выступать основным средством выражения в различных сферах изобразительного и декоративно-прикладного искусства. В средние века жанр миниатюры, используемый в монументальной живописи и керамике, а затем в текстильном искусстве и ковроткачестве, и наконец, в книжной графике (иллюстрирование рукописей), занял своё место в азербайджанском искусстве, стал «узнаваемым знаком» национального изобразительного и декоративно-прикладного искусства в мировом масштабе. В XIX–XX вв. обращение знаменитых художников к традиции миниатюры в европейских жанрах и течениях современного веяния, без сомнения, можно связать с не встречающимися доселе принципами художественного выражения. Даже сегодня превращение миниатюры в источник вдохновения для современных художников говорит о незыблемой вечности этого жанра.
**Ключевые слова:** миниатюра, стиль, принцип, жанр, сюжет, эстетика, стилизация